*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 iyun 2019-cu il № 47 (2364) Qiymәti 30 qəpik


# Əlahiddə Ümumqoşun Ordu yüksək döyüş qabiliyyətinə malikdir

## “Sarsılmaz qardaşlıq-2019” birgə döyüş atışlı taktiki təlimləri bunu bir daha təsdiq etdi



*Yüksək döyüş qabiliyyətinə malik qüdrətli ordu ölkəsini, yurdunu sevən hər bir vətənpərvər insanın fəxarət ünvanı, qürur mənbəyidir. Çünki ordumuz ölkəmizin qüdrəti, elimizin, obamızın güvənc yeridir. "Hər bir uğurlu diplomatiyanın arxasında kəskin qılınc dayanır" deyimi də bu baxımdan təsadüfən yaranmayıb.*

### Ordumuzun qüdrəti - Aprel döyüşləri, Günnüt zəfəri

Ordunun döyüş qabiliyyətini, gücünü isə yalnız iki halda müəyyənləşdirmək olar: birincisi, müharibədə, ikincisi, sülh şəraitində genişmiqyaslı hərbi təlimlərdə. Birinci məqam barədə birmənalı şəkildə onu deyə bilərik ki, son dövrlər Azərbaycan Ordusu və onun tərkib hissəsi olan Əlahiddə Ümumqoşun Ordu təcavüzkar düşmənin təxribatlarına qarşı ildırımsürətli cavab zərbələrində öz gücünü, qüdrətini artıq dünyaya nümayiş etdirib. 2016-cı ildə Aprel döyüşləri, 2018-ci ildə Günnüt zəfəri ölkəmizin hərbi gücünü, ordumuzun peşəkarlığını, döyüş qabiliyyətini göstərən qələbə tarixləridir.

İkinci məqam barədə danışarkən dünyanın məşhur hərb xadimlərinin fikirlərini yada salmaq yerinə düşərdi. Onlar təlimlərin keçirilməsinin və bu zaman əldə edilən nəticələrin əhəmiyyətini vurğulayaraq qeyd ediblər ki, təlimlər zabitin də, gizirin də, əsgərin də həyatında olduqca önəmlidir, çünki bu sınaq onların hərbi bacarığını, səriştəsini qiymətləndirməyə imkan verir. Kim təlimdə fərqlənirsə, deməli, müharibə meydanında qələbə onundur. Bu mənada, təlimləri "hərbçilərin akademiyası" adlandırmaq səhv olmazdı. Reallıq budur ki, ən mühüm hərbi əməliyyat tədbiri olan təlimlər şəxsi heyətin döyüş vərdişlərinin möhkəmləndirilməsində, qələbəyə olan inamın formalaşmasında başlıca rol oynayır. Bu gün ölkəmizdə, o cümlədən Naxçıvanda müxtəlif formalı təlimlərə üstünlük verilməklə döyüş hazırlığı səviyyəsi daim yüksəldilir. Eyni zamanda, təlimlərdə qoşunların döyüşə hazırolma səviyyəsinə gətirilmə qabiliyyəti, döyüşdə iştirakı, həmçinin maddi-texniki təminat məsələləri yoxlanılır. Bu baxımdan Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən, iyunun 7-11-də Naxçıvanda iki ölkənin silahlı qüvvələrinin keçirdiyi "Sarsılmaz qardaşlıq-2019" birgə döyüş atışlı taktiki təlimləri əhəmiyyətli nəticələri ilə yadda qaldı.

(Ardı 5-ci səhifədə)

# Müdafiə naziri Çinin ölkəmizdə diplomatik fəaliyyəti başa çatan səfiri ilə görüşüb



*İyunun 14-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə diplomatik fəaliyyəti başa çatan Çin Xalq Respublikasının fövqəladə və səlahiyyətli səfiri Vey Cinhuan ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan ilə Çin arasında bütün sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın inkişaf etdiyini vurğulayan Müdafiə naziri bunun gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə edib.

Ölkəmizdə diplomatik fəaliyyəti müddətində Azərbaycan-Çin hərbi əlaqələrinin genişləndirilməsində göstərdiyi səylərə görə səfirə təşəkkürünü bildirən general-polkovnik Zakir Həsənov ona gələcək işlərində də uğurlar arzulayıb.

Diplomat isə öz növbəsində ölkəmizdən xoş təəssüratlarla ayrıldığını, Azərbaycan dövlətinin və xalqının daim səmimi dostu olaraq qalacağını bildirib.

Görüşdə, həmçinin ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlıq, o cümlədən Çinin Müdafiə nazirinin Azərbaycana planlaşdırılan səfəri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Müdafiə naziri: Düşmən təxribatlarının qarşısı adekvat tədbirlər görülməklə alınmalı və şəxsi heyətin təhlükəsizliyi təmin edilməlidir

*İyunun 15-də Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında nazir müavinləri, qoşun növləri komandanları, baş idarə, idarə və xidmət rəisləri, birlik komandirlərinin iştirakı, eləcə də video-bağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlərin də cəlb olunması ilə xidməti müşavirə keçirilib.*

Ümummilli liderimiz Heydər Əliyevin və respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Müdafiə naziri 15 İyun - Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən, Ulu Öndərin çoxşaxəli fəaliyyətindən və ölkəmiz üçün göstərdiyi misilsiz xidmətlərindən danışıb. Nazir çıxışında xüsusi qeyd edib ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bildirdiyi kimi, ölkəmizin güclü hərbi potensialı və Azərbaycan Ordusunun döyüş qabiliyyəti ərazi bütövlüyümüzün təmin edilməsində əsas amillərdən biridir.

Müdafiə naziri qoşunların təmas xəttindəki hazırkı vəziyyəti, ötən ay ərzində görülən işləri, xüsusilə Bakı və Naxçıvanda keçirilən təlimlərin nəticələrini təhlil edərək bildirib ki, ordumuzun döyüş qabiliyyəti, mənəvi-psixoloji vəziyyəti və təminatı yüksək səviyyədədir, bu istiqamətdə planlaşdırılan bütün tədbirlər tam həcmdə yerinə yetirilib.



General-polkovnik Zakir Həsənov snayperlərin fəaliyyəti, müdafiənin dayanıqlılığı, maskalanmanın effektiv təşkili, şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi və düşmən təxribatlarının ehtimal olunduğu istiqamətlərdə onun qarşısının xüsusi qurğu və vasitələrin tətbiqi ilə dərhal və adekvat tədbirlər görməklə alınması ilə bağlı vəzifəli şəxslər qarşısında tapşırıqlar qoyub.

Havanın hərarətinin yüksəlməsi ilə əlaqədar şəxsi heyət arasında istilik və günvurma hallarının qarşısının alınması məqsədilə Müdafiə naziri hərbi hissə və birləşmələrdə xüsusi rejimin tətbiq olunmasını da komandir və rəis heyətinə çatdırıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri yeni təlim mərkəzinin açılışında iştirak edib

*İyunun 18-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yeni inşa olunan təlim mərkəzinin açılışında iştirak edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərkəz haqqında məruzə edilərək bildirilib ki, burada təlimlərə cəlb olunacaq şəxsi heyətin yerləşdirilməsi və fəaliyyəti üçün lazımi infrastruktur yaradılıb.

Real döyüş şəraitinə uyğun inşa edilən təlim mərkəzində atış çalışmaları, müxtəlif döyüş və xüsusi texnikanın mürəkkəb relyef və hava şəraitində idarə olunması üzrə praktiki vərdişlərin təkmilləşdirilməsi məqsədilə məşğələlərin keçirilməsi, döyüş tapşırıqlarının tədris və praktiki məşq etdirilməsi nəzərdə tutulub.




Müdafiə naziri poliqonun ərazisindəki hərbi infrastruktur obyektlərinə baş çəkib, müxtəlif bölmələr ilə keçirilən səhra məşğələlərini izləyib.

Sonda general-polkovnik Zakir Həsənov mətbuat nümayəndələri ilə görüşüb və onları maraqlandıran sualları cavablandırıb.

## Respublika Günü, Silahlı Qüvvələr Günü və diplomatik xidmət orqanlarımızın 100 illiyi Ankarada qeyd edilib

Azərbaycanın Türkiyədəki səfirliyində 28 May - Respublika Günü, Silahlı Qüvvələr Günü və Azərbaycanın diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibəti ilə rəsmi qəbul keçirilib.

AZƏRTAC xəbər verir ki, qəbulda Türkiyənin rəsmi şəxsləri, Silahlı Qüvvələrin generalları, elm və mədəniyyət xadimləri, Ankarada fəaliyyət göstərən diplomatik korpusun və beynəlxalq təşkilatların rəhbərləri, qardaş ölkədə çalışan, yaşayan və təhsil alan azərbaycanlılar iştirak ediblər.

Əvvəlcə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Sonra Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, səfirliyimizin hərbi attaşesi polkovnik Müşfiq Məmmədov və Türkiyənin Gənclər və İdman naziri Mehmet Muharrem Kasapoğlunun çıxışları olub.

Hərbi təhsil

# Hərbi liseylərdə buraxılış mərasimi

*İyunun 17-də Heydər Əliyev adına Hərbi Liseyin 2019-cu il buraxılışı münasibəti ilə tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTACA-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tədbirdə iştirak edib.*



Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə mərasimə hazırlıq barədə raport verib.

Ali Məclisin sədri kursantları salamlayıb.

Kursantlar orkestrin müşayiəti ilə Azərbaycanın Dövlət himnini ifa ediblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Heydər Əliyev adına Hərbi Liseyin 19-cu buraxılışı münasibətilə liseyin kursant, zabit və müəllimlərini, valideynləri və tədbir iştirakçılarını təbrik edərək deyib: Ümummilli liderimiz Heydər Əliyev gənclərin hərb sənətinə yiyələnməsi vacibliyini önə çəkərək deyirdi: "Gəncləri hərbi məktəblərə daxil olmaq və Silahlı Qüvvələrimizin zabit korpusunda xidmət etmək üçün hazırlamaq qarşımızda duran ən mühüm vəzifədir". Ötən əsrin 70-ci illərində Ulu Öndər tərəfindən ölkəmizdə ilk hərbi məktəbin yaradılması müstəqillik bərpa edildikdən sonra milli ordumuzun komandan-zabit heyətini formalaşdırmış, 1998-ci ildə dahi şəxsiyyətin Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının təşkil olunması isə blokada şəraitində yerləşən muxtar respublikanın müdafiə təhlükəsizliyinə töhfə vermişdir.



Ali Məclisin sədri deyib: Böyük uzaqgörənliklə qəbul olunmuş bu qərarın tarixi əhəmiyyəti zaman keçdikcə öz təsdiqini tapmış, ölkə Prezidentinin Sərəncamı ilə 2004-cü ildə filialın əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır. 1998-ci ildə 56 kursantla fəaliyyətə başlayan liseydə bu gün 375 kursant təhsil alır. Builki məzunlar da nəzərə alınmaqla ötən dövrdə Hərbi liseyi 3 mindən artıq kursant bitirərək ölkəmizdə və xaricdə ali hərbi məktəblərə qəbul olmuşdur. Hazırda Azərbaycan Respublikasının Silahlı Qüvvələrində liseyin 2 minə yaxın məzunu zabit kimi xidmət edir. Bu, bizi qürurlandırır. Ölkəmizin gələcək zabitlərini hazırlayan Heydər Əliyev adına Hərbi Liseylə fəxr edirik!

Ali Məclisin sədri kursantlara müraciətlə deyib: Ordu o zaman güclü olur ki, onun peşəkar komandan-zabit heyəti olsun. Azərbaycan dövləti hərbi təhsil müəssisələrinin fəaliyyəti üçün hərtərəfli şərait yaradır, zabit hazırlığına diqqəti artırır. Qalır, bu imkanlardan səmərəli istifadə etmək. Hər bir kursant istər Hərbi liseydə, istərsə də ali hərbi məktəblərdə təhsil aldığı dövrdə hərb sənətini dərindən öyrənməli, daim öz üzərində işləməli, gələcəyin zabiti kimi yetişməlidir. Zabit olmaq üçün təkcə hərbi təhsil və fiziki hazırlıq kifayət etmir. Zabit adının məsuliyyəti daha böyükdür. Bu peşəni seçən hər bir gənc, ilk növbədə Vətənini, xalqını, dövlətini sevməlidir. Tarixinə, milli dəyərlərinə, dilinə, adət-ənənələrinə sahib çıxmalı, dünyagörüşünü artırmalı, dövləti və xalqı qarşısındakı xidməti borcunu şərəflə yerinə yetirməlidir.

Qeyd olunub ki, bu gün Azərbaycan Respublikasının Silahlı Qüvvələri müasir maddi-texniki təminata, döyüş texnikalarına və silahlara malikdir. Ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında hərbi qulluqçuların xidməti və yaşayış şəraiti üçün ardıcıl tədbirlər görülür. Yeni hərbi hissələr, xidməti yaşayış kompleksləri istifadəyə verilir. Ona görə də gələcəyin zabiti olacaq gənclər məsuliyyətlərini daha da artırmalı, müasir döyüş texnikalarından və silahlardan istifadə vərdişlərinə mükəmməl yiyələnməli, Ümummilli Liderimizin ideyalarına və Ali Baş Komandanımıza daim sədaqətli olmalıdırlar. Müstəqil Azərbaycanın zabiti adını daşımağın şərəfi də məhz bundan ibarətdir.

Ali Məclisin sədri bir daha buraxılış münasibəti ilə kursantları təbrik edib, qarşıya qoyulan vəzifələrin icrasında, gələcək təhsildə və xidmətdə onlara uğurlar arzulayıb.

Heydər Əliyev adına Hərbi Liseyin rəisi polkovnik Məhəmməd Həsənov buraxılış mərasimində iştirakına görə Ali Məclisin sədrinə liseyin kollektivi adından hörmət və ehtiramlarını bildirərək deyib: Ulu Öndərin əsasını qoyduğu ordu quruculuğu siyasəti bu gün ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Görülən işlər sırasında ixtisaslı hərbçi kadrların hazırlanması xüsusi yer tutur. Heydər Əliyev adına Hərbi Liseyin yaranması, keçdiyi inkişaf yolu və malik olduğu müasir təlim-tədris bazası bunu bir daha təsdiq edir. Hərbi liseyə qəbul olunmaq üçün müraciət edənlərin sayı ilbəil artır. Liseydə muxtar respublika ilə yanaşı, ölkəmizin digər bölgələrindən olan gənclər də təhsil alırlar. Cari dərs ilində kursantların fiziki və mənəvi-psixoloji hazırlığı diqqətdə saxlanılıb, onlar il ərzində keçirilən beynəlxalq, ölkə və muxtar respublika səviyyəli idman yarışlarında iştirak edərək layiqli yerlər tutublar.

Valideyn Sara Qurbanova çıxış edərək deyib: Bu gün bir valideyn kimi qürur duyuram. Çünki övladım Heydər Əliyev adına Hərbi Liseyi bitirərək ali hərbi məktəbə qəbul olub. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, "Cəmiyyətdə hər bir peşə lazımdır, hörmətlidir, cəmiyyət üçün faydalıdır. Ancaq Vətəni qorumaq peşəsi bu peşələrin hamısından yüksəkdir. Özünü bu peşəyə həsr edən hər bir Azərbaycan gənci bütün gənclərdən qiymətlidir". Bu gün Heydər Əliyev adına Hərbi Liseydə yüzlərlə gənc təhsil alır, milli və hərbi vətənpərvərlik ruhunda tərbiyə olunurlar. Xoşbəxtəm ki, mənim övladım da bu şərəfli peşəni seçib. Valideyn olaraq kursantlara arzum budur ki, gələcəkdə Vətənin keşiyində mərdliklə dayansınlar. İstər ali hərbi məktəblərdə təhsil aldıqları, istərsə də Silahlı Qüvvələrdə xidmət etdikləri dövrdə göstərilən etimadı şərəfli xidmətlə doğrultsunlar. Heydər Əliyev adına Hərbi Lisey Ali Məclis sədrinin təşəbbüsü ilə yaranıb, diqqət və qayğısı ilə əhatə olunub, inkişaf edərək mətinlik məktəbinə çevrilib. Liseydə övladlarımızın təhsili, yaşayışı və vətənpərvər ruhda böyüdülməsi üçün hərtərəfli şərait var. Göstərilən qayğı bütün valideynlər tərəfindən razılıq və minnətdarlıqla qarşılanır.

Heydər Əliyev adına Hərbi Liseyin məzun kursantı Kərim Ələkbərov çıxış edərək deyib: "Bu gün biz kursantların həyatında olduqca əlamətdardır.



Çünki ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Hərbi Liseyi bitirib ali hərbi məktəbə qəbul olmuşuq. Heydər Əliyev adına Hərbi Liseydə aldığımız yüksək təhsil zabit arzumuzu reallaşdırdı. Biz Azərbaycan Ordusunun gələcək zabitləriyik. Gələcəkdə doğma Azərbaycanımızın hansı guşəsində xidmət etməyimizdən asılı olmayaraq məzunu olduğumuz Heydər Əliyev adına Hərbi Liseyin adını yüksək tutacaq, göstərilən etimadı doğruldacaq, Ali Baş Komandanımızın əmrinə hər an hazır olacağıq". Məzun olan və təhsil alan kursantlar adından Ali Məclisin sədrinə minnətdarlığını bildirən Kərim Ələkbərov söz verib ki, qarşıdakı təhsil illərində göstərilən yüksək etimadı doğruldacaqlar.

Sonra Ali Məclisin sədri liseyin əlaçı kursantlarına attestatları təqdim edib, zabit, müəllim və kursantları mükafatlandırıb.

Kursant Ədib Əliyev təhsil ocağının rəmzi kötüyünə xatirə birkasını vurub.

Orkestrin müşayiəti ilə "Hərbi lisey marşı" ifa edilib, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçib.

Ali Məclisin sədri ümummilli liderimiz Heydər Əliyevin Hərbi liseydəki büstü önündə kursantlarla xatirə şəkli çəkdirib.

* * *

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarının növbəti buraxılışı keçirilib.

Tədbirdə nazirliyin nümayəndələri, liseyin şəxsi heyəti, müəllimlər, təhsil ocağını müxtəlif illərdə bitirmiş məzunlar, valideynlər və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edənlər əlamətdar gün münasibətilə şəxsi heyəti və kursantların yaxınlarını təbrik ediblər.

Kursantlar onlara göstərilən etimadı doğruldacaqlarına, dövlətə gərəkli vətəndaş, orduya dəyərli zabit olacaqlarına, Vətən, dövlət və xalq qarşısında vəzifələrini layiqincə yerinə yetirəcəklərinə, hərbçi şərəfini hər zaman uca tutacaqlarına söz veriblər.

Mərasimdə liseyin yaş kötüyünə 2019-cu il buraxılışının rəmzi xatirə lövhəsi vurulub.

Sonra təhsildə və nizam-intizamda fərqlənən bir qrup kursanta qiymətli hədiyyələr təqdim olunub.

Məzunların bayrağı üçüncü kursa təhvil verildikdən sonra kursantlar təntənəli marşın sədaları altında tribunanın önündən keçiblər.

# Milli Qurtuluş Günü münasibəti ilə Azərbaycan Ordusunda tədbirlər keçirildi

*15 İyun - Milli Qurtuluş Günü münasibəti ilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində silsilə tədbirlər keçirilib. Plana əsasən, şəxsi heyət Heydər Əliyev mərkəzlərini, muzeyləri və abidələri ziyarət edib. Ulu Öndərin şərəfli həyat yolu və fəaliyyəti haqqında filmlər nümayiş etdirilib, konfranslar, "dəyirmi masa"lar, viktorinalar, eləcə də Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, rayon mədəniyyət müəssisələri kollektivlərinin iştirakı ilə müxtəlif mədəni-kütləvi tədbirlər təşkil olunub.*



15 İyun - Milli Qurtuluş Günü respublikamızın bütün idarə və təşkilatlarında olduğu kimi, "N" hərbi hissəsində də böyük coşqu ilə qeyd olundu.

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin və hərbi hissənin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə öncə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbirdə kapitan Fərhad Ömərov əlamətdar gün münasibəti ilə şəxsi heyəti təbrik edərək 15 iyunun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil olmasından, 1991-ci ilin oktyabrında Azərbaycanın müstəqillik əldə etməsindən, Ermənistanın işğalçılıq niyyəti güdən təcavüzünün respublikada vəziyyəti gərginləşdirməsindən danışaraq bildirdi ki, elə ağır bir dövrdə Azərbaycan dövlətini və xalqını düşdüyü ağır vəziyyətdən çıxaran və onun müstəqilliyini qoruya bilən bir xilaskar, müdrik bir siyasətçi lazım idi. "Həmin şəxs Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyev idi. Xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Məhz həmin gün Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd olunur.

Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi və bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün manevələrə baxmayaraq ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu...".

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin zabiti leytenant Günel Dadaşova qeyd etdi ki, ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini qoruyub saxladı, onun iqtisadi və siyasi durumunda böyük dönüş yaratdı. "Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu. Xalqımız Azərbaycan və azərbaycançılıq ideyası ətrafında birləşdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhranlardan xilas oldu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə öz həllini tapdı. Ölkə həyatının bütün istiqamətlərində - ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatında əsaslı dönüş başlandı. Xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi və bu gün bu dahi insanın böyük zəhməti, əməyi nəticəsində dünya dövlətləri sırasında sayılan bir dövlət olaraq Azərbaycan tanındı. Bu gün Prezident, Ali



Baş Komandan İlham Əliyev Ulu Öndərin siyasi kursunu uğurla davam etdirir...".

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin nümayəndəsi Gülxar Məmmədova vurğuladı ki, artıq illərdir Azərbaycan xalqı 15 iyun gününü əziz bayram kimi qeyd edir və Azərbaycan dövlətinin qurtuluşunun başlanğıcı kimi dəyərləndirir." Ötən illərdə Ümummilli Liderimizin həyata keçirdiyi şərəfli xilaskarlıq missiyası xalqımızın və bütün dünyanın gözü qarşısında cərəyan etdi, Azərbaycan məhv olmaq təhlükəsindən qurtularaq, gələcəyə inamla baxan güclü bir dövlətə çevrildi. Bu illərdə Heydər Əliyevin gərgin zəhmət, əzm və siyasi iradəsi sayəsində reallaşdırdığı nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir...".

Tədbir Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin rəngarəng konsert proqramı ilə başa çatdı.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda aşpaz hazırlığı kursunun məzunlarına sertifikatlar təqdim edilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2019-cu il üçün fəaliyyət planına əsasən, "Aşpaz hazırlığı kursu"nu müvəffəqiyyətlə bitirən məzunların buraxılış mərasimi keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, kursun əsas məqsədi Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində çalışan hərbi aşpazların nəzəri bilik və praktiki bacarıq səviyyələrini artırmaqdır.

Hazırlıq kursunda aşpazlara qidanın düzgün hazırlanması qaydaları, ərzaq məhsullarının emalı zamanı əmələ gələn tullantıların normaları, texnoloji avadanlıqlardan düzgün istifadə qaydaları, xüsusi geyimin təmizliyi, sanitariya-gigiyena tələblərinə ciddi riayət edilməsi və digər mövzular üzrə dərslər keçirilib.

Kursu müvəffəqiyyətlə bitirən hərbi qulluqçulara və mülki işçilərə sertifikatlar təqdim edilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***18 iyun 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Kəngərli, Acarlı, Novruzlu, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Sarsılmaz qardaşlıq-2019" təlimində iştirak etmiş türkiyəli hərbçilərin təntənəli yola salınması mərasimi keçirilib

*"Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təliminə cəlb edilmiş Türkiyə Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin təntənəli yola salınması mərasimi keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərasimdə çıxış edən Əlahiddə Ümumqoşun Ordu Komandanının müavini general-mayor Elman Orucov təlimin yüksək səviyyədə keçirildiyini, iki qardaş ölkənin hərbi qulluqçularının yüksək peşəkarlıq, vətənpərvərlik və sarsılmaz qardaşlıq nümayiş etdirdiklərini vurğulayıb.

Tədbirdə təlim iştirakçılarına hədiyyələr təqdim edilib.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti, silah və texnikaları Sədərək sərhəd-keçid məntəqəsindən - Araz çayı üzərindəki "Ümid" körpüsündən xidmət yerlərinə yola salınıb.

## Özbəkistan portalı Ermənistan ordusunun cəbhə xəttindəki son təxribatları barədə yazır

Özbəkistanın tnews.uz portalı Ermənistan ordusunun cəbhə xəttindəki son təxribatları haqqında məlumat yayıb.

Məlumatda Azərbaycan Silahlı Qüvvələrinin əsgəri Elşən Xəlilovun ermənilər tərəfindən qətlə yetirildiyi bildirilir. Qeyd edilir ki, bu qanlı hadisə ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü ərəfəsində törədilib və bu da regionda gərginliyin daha da artmasına xidmət edir.

Məqalədə qeyd edilir ki, bundan əvvəl erməni qəsbkarları mayor Aqil Omarovu da qətlə yetiriblər.

Vurğulanır ki, bütün bunlarla Nikol Paşinyan və komandası sülh prosesinə zərbə vurur.

**AZƏRTAC**

# Əlahiddə Ümumqoşun Ordu yüksək döyüş qabiliyyətinə malikdir

**(Əvvəli 1-ci səhifədə)**

Təlimə 5 minə yaxın şəxsi heyət, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 təyyarə, helikopter, pilotsuz uçuş aparatı, silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və texnika nümunələri, 30-dan çox hava hücumundan müdafiə vasitəsi və 300-ə yaxın avtomobil texnikası cəlb edilib. Bu, təlimin genişmiqyaslı olduğunu bir daha göstərir. Naxçıvan Qarnizonu Qoşunları Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri ilə birgə təlimdə qarşıya qoyulmuş tapşırığı uğurla yerinə yetirərək şərti düşmən üzərində zəfər qazanması birliyimizin, həmrəyliyimizin daim yeni-yeni qələbələrə yol açacağının müjdəçisinə çevrildi. Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqlarının "SU-25" hücum təyyarələrinin və vertolyotların müşayiəti ilə döyüş meydanında nümayiş olunması isə iki qardaş ölkə arasındakı səmimi, qarşılıqlı, faydalı əlaqələrin, strateji tərəfdaşlıq münasibətlərinin təcəssümü idi.



İyunun 11-də təlimin uğurla başa çatmasından sonra şəxsi heyətlə görüş zamanı çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun dediyi kimi: "Ordu quruculuğu tədbirləri sırasında hərbi təlimlərin əhəmiyyəti böyükdür. Çünki təlimlər əsgər və zabitlərdə hərbi vərdişləri formalaşdırır, onların döyüş hazırlığını artırır. Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürk deyirdi ki, "Hər hansı bir ordunun dəyəri onun əsgər və komandan heyətinin dəyəri ilə ölçülür". Azərbaycan-Türkiyə birgə hərbi təlimində qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi bir daha əminlik yaratdı ki, təlimə cəlb olunmuş şəxsi heyətlərdə yüksək döyüş hazırlığı vardır".

## Hədəflərin 85, maketlərin 90 faizindən çoxu məhv edildi

Düşmənlərimizi təşvişə salan, dosta qürur yaşadan həmin təlimlərdə iştirak edən Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikasının güc strukturlarının bölmələri qardaş ölkənin hərbçiləri ilə birlikdə təlim planında qarşıya qoyulan bütün vəzifələri uğurla yerinə yetirməklə yüksək döyüş qabiliyyəti nümayiş etdiriblər. Fəxrlə deyə bilərik ki, hazırlanmış ssenariyə uyğun Türkiyə Respublikası Silahlı Qüvvələrinin təlimə cəlb olunan heyəti ilə Naxçıvan Qarnizonu Qoşunlarının şəxsi heyəti arasında bölmələrin birgə idarə edilməsində vahid prosedurların tətbiqinə nail olunub, hədəflərin 85, maketlərin 90 faizindən çoxu məhv edilib. Nüfuzlu hərbi ekspertlərin də vurğuladıqları kimi, bu, çox yüksək nəticədir və dünyanın yalnız ən qüdrətli orduları təlimlərdə bu nəticələri əldə edə bilirlər.

Maraqlı bir məqam da ondan ibarətdir ki, həmin ordular başqa ölkənin silahlı qüvvələri ilə birlikdə təlim keçirdikdə bu göstərici bəzən çox aşağı düşür. Bunu milli amillərlə, əməkdaşlığın, koordinasiyanın zəif olması ilə əlaqələndirənlər az deyil. Bu baxımdan "Sarsılmaz qardaşlıq-2019" birgə döyüş atışlı taktiki təlimlərində hər iki ölkənin silahlı qüvvələrinin şəxsi heyəti verilən döyüş tapşırıqlarını peşəkarlıqla yerinə yetirməklə, eyni zamanda, iki ordu arasındakı əməkdaşlığın, koordinasiyanın yüksək səviyyədə olduğunu nümayiş etdirdilər. Təlimdə qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması, birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi də diqqətçəkən əsas məqamlardandır.

Bu, belə də olmalıdır. Azərbaycan ilə Türkiyənin qonşuluq, dostluq münasibətləri region ölkələri üçün nümunədir. Bu əlaqələri xarakterizə edən əsas məqam isə təmənnasız qardaş köməyi, qardaş dəstəyidir. Tarixboyu bu iki ölkə qarşılıqlı olaraq bir-birinə daim dəstək olub. Azərbaycanlılar Çanaqqalada, Türk Qurtuluş Savaşında Türkiyə uğrunda canlarını fəda ediblər, türkiyəli qardaşlarımız isə həm 1918-ci ildə, həm də ötən əsrin 90-cı illərinin əvvəllərində bizə arxa-dayaq olublar. Bu gün isə iki qardaş ölkə çiyin-çiyinə verərək çox mühüm qlobal layihələri gerçəkləşdirir, regionun təhlükəsizliyi üçün əsaslı addımlar atır.

## Silahlı Qüvvələrimizdə yüksək vətənpərvərlik və birlik vardır

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri şəxsi heyətlə görüşündəki çıxışında digər bir mühüm məqama diqqət çəkib. Ali Məclisin sədri deyib: "Ordunun gücünü və döyüş qabiliyyətini yalnız maddi-texniki baza və silah təminatı deyil, həm də şəxsi heyətin vətənpərvərliyi və birliyi artırır. O ordu güclüdür ki, onun əsgər və zabitlərində vətənpərvərlik və birlik olsun. Keçirilən təlimdən çıxan nəticə də ondan ibarətdir ki, bir millətin, iki dövlətin silahlı qüvvələrində yüksək vətənpərvərlik və birlik vardır".

Ordumuzun aparıcı hissəsini, heç şübhəsiz, gənclər təşkil edir. Bu mənada, onların əsl vətənpərvər kimi yetişməsi və öz üzərlərinə düşən tarixi missiyanı ləyaqətlə yerinə yetirməsi müharibə şəraitində yaşayan ölkəmiz üçün xüsusi əhəmiyyət daşıyır. Çünki vətənpərvərlik elə ali duyğudur ki, bu duyğu insanı zirvələrə yüksəldir, ona qəhrəmanlıq, fədakarlıq, məğlubedilməzlik, torpağa, xalqa, dövlətə, dövlətçiliyə bağlılıq, yurda sevgi, milli hədəflərə inam aşılayır.



Vətən sevgisi, yurd təəssübü gənc nəslin milli mənlik şüurunun inkişafında əsas istiqamətləri müəyyənləşdirir. Sevindirici haldır ki, ordumuzun şəxsi heyəti müdafiə qüdrətini artırmaq və düşmənə həlledici zərbə endirmək üçün istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlıq baxımından daim ciddi irəliləyişlərə imza atır, bununla da, dövlətin və xalqın etimadını doğrultmağa çalışır. "Sarsılmaz qardaşlıq-2019" birgə döyüş atışlı taktiki təlimlərində də bunun şahidi olduq.

Naxçıvanda ordu quruculuğu sahəsində çox böyük nailiyyətlər qazanılıb. Bu gün Əlahiddə Ümumqoşun Ordu özünün yüksək döyüş qabiliyyəti, nizam-intizamı və silah-sursat təchizatı ilə NATO kimi qüdrətli hərbi-siyasi təşkilatda Amerika Birləşmiş Ştatlarından sonra ikinci yerdə qərarlaşan, Avropada isə analoqu olmayan Türkiyə Silahlı Qüvvələri ilə birgə keçirdiyi hərbi təlimlərdə öz gücünü nümayiş etdirə bilirsə, bu, o deməkdir ki, biz ordu quruculuğu sahəsində çox böyük nailiyyətlər qazanmışıq. Bu həm də o deməkdir ki, 30 ildir, blokada vəziyyətində yaşayan Naxçıvanın müdafiəsi yüksək səviyyədə təşkil olunub. Yəni bu gün Əlahiddə Ümumqoşun Ordu qədim diyarın sürətli yüksəlişinin, tərəqqisinin qarantına çevrilib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi: "Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır. Belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır". "Sarsılmaz qardaşlıq-2019" birgə döyüş atışlı taktiki təlimləri artıq bunun reallığa çevrildiyini bir daha təsdiq etdi.

**Rauf ƏLİYEV,**
**AZƏRTAC-ın Naxçıvan bürosunun rəhbəri**

# Kimya bölmələri ilə taktiki-xüsusi təlim keçirilib



*Kimya Qoşunlarının hərbi hissəsində hücum əməliyyatında taborun fəaliyyəti mövzusunda taktiki-xüsusi təlim keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimin əsas məqsədi kimya təminatı bölmələrinin uzlaşmış fəaliyyətini, eləcə də tapşırıqların icrası zamanı şəxsi heyətin praktiki vərdiş və bacarıqlarını, həmçinin mənəvi-psixoloji dözümlüyünü artırmaqdan ibarət olub.



Təlim zamanı bölmələr kimyəvi kəşfiyyatı yerinə yetirməklə zəhərləyici maddələrin növünü, zəhərli ərazinin sərhədlərini təyin edib və digər tapşırıqları icra ediblər.

Keçirilən taktiki-xüsusi təlim zamanı şəxsi heyət yüksək döyüş qabiliyyəti nümayiş etdirib.

## "Dəniz Kuboku-2019" beynəlxalq müsabiqəsinin planlaşdırılması üzrə işçi görüş keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iyunun 18-də Hərbi Dəniz Qüvvələrinin qərargahında "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Azərbaycanın ərazi sularında təşkil olunacaq "Dəniz Kuboku-2019" müsabiqəsinin planlaşdırılması üzrə işçi görüş keçirilib.

Azərbaycan, Rusiya, Qazaxıstan və İran nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə müsabiqənin növbəti dəfə ölkəmizdə təşkilinin əhəmiyyəti vurğulanıb, hazırlıqla bağlı məsələlər, görüləcək işlər müzakirə edilib. Sonra yarışların keçirilməsi üçün hazırlanan infrastruktura baxış keçirilib.

Görüşün yekununa dair protokol imzalanıb.

## İşğal edilmiş ərazilərimizdə Ermənistanın keçirdiyi təlimlər tam nəzarətimiz altındadır

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, işğal edilmiş Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin iyunun 17-də başladığı "genişmiqyaslı" hərbi təlimlər ordumuzun ön xətt bölmələri tərəfindən xüsusi müşahidə vasitələri və cihazları ilə ciddi izlənilir və tam nəzarətdə saxlanılır.

Bildiririk ki, dəfələrlə olduğu kimi, qarşı tərəf bu dəfə də cüzi sayda şəxsi heyət və texnikanı cəlb etməklə keçirdiyi məşğələni "genişmiqyaslı" təlim kimi təqdim etməyə çalışır.

Düşmən tərəfinin təlimlərə guya 10 min şəxsi heyət və çoxlu sayda döyüş texnikası cəlb etməsi barədə yaydığı məlumatın tam əksinə olaraq təqdim edilən videodan da görünür ki, ermənilər həmişə olduğu kimi, yenə də özünəməxsus saxtakarlıq etməklə öz ictimaiyyətini aldadırlar.

*İnsan hüquqlarının müdafiəsi*

# Ölkəmizdə insan hüquqlarının müdafiəsi dünyəvi prinsiplər əsasında qurulub

Dünya tarixinin keçdiyi inkişaf mərhələlərinin ən böyük amili insan hüquqlarına hörmət amilidir. İnsan hüquqlarına hörmət anlayışının kəşfi bəşər sivilizasiyasının qazandığı nailiyyət və cəmiyyətin demokratikliyini təsdiq edən əsas atributlardan biri sayılır. Bu hüquqların qeyd-şərtsiz təmin olunması beynəlxalq hüququn təminatlarından biridir. Hər bir demokratik dövlətin prioritet vəzifələrindən biri öz ölkəsində insan və vətəndaş hüquqlarının, azadlıqlarının hərtərəfli qorunmasını təmin etməsidir.

Ötən əsrin 90-cı illərində müstəqilliyini bərpa edən ölkəmiz dünyəvi dövlət prinsiplərini əsas götürərək demokratik inkişaf yolunu seçdi. Bu gün Azərbaycan insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə təmin olunduğu, eyni zamanda, müdafiə edildiyi demokratik ölkələr sırasındadır. Ölkəmizdə insan və vətəndaş hüquqları və azadlıqlarının müdafiəsi işində ümummilli lider Heydər Əliyevin 1998-ci il fevralın 22-də imzaladığı "İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı və 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" mühüm rol oynadı. Dövlət Proqramında insan hüquqları üzrə səlahiyyətli Müvəkkil təsisatının yaradılması, Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması və digər zəruri məsələlər nəzərdə tutulurdu. Məhz bundan sonra ölkəmizdə vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi və müdafiə olunması istiqamətində görülən fundamental tədbirlər davam etdirildi və bu sahədə çox ciddi nailiyyətlər əldə edildi. "Azərbaycan Respublikası öz həyatını demokratik prinsiplər əsasında quraraq daim çalışacaqdır ki, insan hüquqlarının qorunmasına əməl edilsin", - deyən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli humanizm siyasətinin real və qanunauyğun nəticəsi kimi, Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi istiqamətində yeni keyfiyyət dəyişiklikləri baş verdi. Eyni zamanda, bu sahədə əldə edilən nəticələr hüquqi dövlət quruculuğuna töhfə verən əhəmiyyətli faktor kimi çıxış etdi. Ulu Öndərin ölkəmizin demokratik inkişafı ilə bağlı qərarları bu gün də aktuallığını itirmir və inkişafın əsas istiqamətlərini, strateji hədəflərini müəyyən edir.



Azərbaycanda insan, vətəndaş hüquq və azadlıqlarının qorunması işi getdikcə daha da təkmilləşdirilir, bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsi uğurla davam etdirilir. "Biz ölkəmizdə demokratiyanın, insan hüquqlarının inkişafına və qorunmasına çox böyük əhəmiyyət veririk... Əlbəttə, çox vacibdir ki, bu sahədə həm beynəlxalq təşkilatlar tərəfindən, eyni zamanda, bu sahə ilə bilavasitə məşğul olan qurumlar tərəfindən vahid meyarlıq tətbiq olunsun. Biz, əlbəttə, gələcək fəaliyyətimizdə də Azərbaycanda həm siyasi, həm iqtisadi, həm də sosial islahatları davam etdirəcəyik, insan hüquqlarının qorunması üçün bütün lazımi tədbirləri görəcəyik", - deyən Prezident İlham Əliyevin birbaşa tövsiyə və göstərişləri əsasında görülən ardıcıl işlər insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində xüsusi əhəmiyyət kəsb edir. Təsadüfi deyildir ki, İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" təsdiq edilib. Həmin sərəncamda qeyd edilir ki, Azərbaycanda müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Məhz ali və humanist mövqeyin qanunauyğun nəticəsi kimi, ölkə Prezidentinin 18 iyun 2007-ci il tarixli Sərəncamı ilə hər il iyunun 18-nin Azərbaycan Respublikasında İnsan Hüquqları Günü kimi qeyd edilməsi qərara alınıb.

Ölkəmizdə insan hüquq və azadlıqlarının daha səmərəli təmini istiqamətində yeni prioritetlər nəzərə alınmaqla, 27 dekabr 2011-ci il tarixdə Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı təsdiq edildi. Bu proqramın həyata keçirilməsinin monitorinqi, dəyərləndirilməsi və əlaqələndirilməsi üzrə işçi qrupunun fəaliyyətinə rəhbərlik Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) tövsiyə edildi. Nəticədə bir çox dövlət qurumlarını və vətəndaş cəmiyyəti təsisatlarını birləşdirən şəbəkə şəklində fəaliyyət təmin olundu. Ötən bu illər ərzində Milli Fəaliyyət Proqramında nəzərdə tutulmuş bir çox məsələlər tam yerinə yetirildi.

Bu illər ərzində "İnsan hüquqları", habelə "Genderə giriş" fənlərinin müstəqil bir fənn kimi universitet səviyyəsində tədrisinə, yeni nəsil hüquqşünaslar, sosial işçilər və ixtisaslaşmış psixoloqların hazırlanması işinin təşkilinə nail olundu. Hazırda Bakı Dövlət Universitetində insan hüquqları kafedrası fəaliyyət göstərir. Bundan başqa, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında, yeni yaradılmış və ixtisaslaşdırılmış akademiyalarda, Polis və Ədliyyə akademiyalarında dövlət qulluqçularına, müdavimlərə, tələbələrə ünvanlanan müxtəlif mövzulu treninqlər keçirilir, hazırlıq kursları təşkil edilir. Bir sözlə, insan hüquqları sahəsində məlumatlı kadrların yetişdirilməsi işində mühüm addımlar atılır.

Onu da qeyd etməliyik ki, hərbi qulluqçuların hüquqlarının müdafiəsi işi Müvəkkilin fəaliyyətinin əsas istiqamətlərindən biri kimi qalmaqdadır. Müvəkkilə ünvanlanan müraciətlər vaxtında araşdırılaraq tədbirlər görülür. Müdafiə Nazirliyi ilə hər il təsdiq edilmiş iş planına əsasən, Müvəkkil və əməkdaşları istər cəbhə bölgəsində yerləşən hərbi hissələrdə, istərsə də Bakı qarnizonundakı hərbi hissələrdə mütəmadi olaraq hərbi qulluqçularla görüşlər keçirir, onları maraqlandıran suallara cavab verir və hüquqi maarifləndirmə istiqamətində zəruri işlər aparırlar. Belə tədbirlərin həyata keçirilməsi hərbi qulluqçuların hüquq və azadlıqlarının müdafiəsi, Azərbaycan Ordusunda ideoloji, hüquqi biliklərin artırılması və mənəvi-psixoloji təminatın gücləndirilməsi baxımından çox əhəmiyyətlidir.

Müasir inkişaf mərhələsi hər kəsdən yeni yanaşma prinsipini, xalqa xidmət müstəvisində səmərəli və şəffaf, müasir idarəetmə modelini, vətəndaş-dövlət qulluqçusu münasibətlərində daim inkişaf edən düşüncə tərzini tələb edir. Bütün bunların reallaşması insan hüquqlarına verilən töhfə olmaqla, yeni təşəbbüsləri və qarşılıqlı əməkdaşlığı şərtləndirir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

Ordu və cəmiyyət

# "Döyüşlərə hər zaman səfərbərik"

*Bu günlərdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin üzvləri ilə silsilə görüşlər keçirilib. Keçirilən tədbirlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı adından Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələrinin bir qrupuna mükafatlar təqdim olunub.*

*Rubrikamızın budəfəki qonağı Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri ehtiyatda olan polkovnik Mehdi Mehdiyevdir.*



İctimai birliyin sədri M.Mehdiyev söhbətinə ilk olaraq xalqımızın ümummilli lideri Heydər Əliyevin vətənsevərlik haqqında söylədiyi kəlamla başladı: "Ulu öndər Heydər Əliyev deyirdi ki, hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik. Əlbəttə, bu fikir hər bir Azərbaycan vətəndaşının dilində əzbər olmalıdır. Uşaq bağçalarında tərbiyə alan, orta və ali məktəblərdə təhsil alan hər bir Azərbaycan vətəndaşı vətənpərvər ruhda böyüyüb müstəqil həyata atılmalıdır. Qarabağ müharibəsi başlayanda hər birimizin ürəyi Vətən eşqi ilə döyünürdü. Silaha sarılıb doğma Azərbaycanımızın suverenliyi, ərazi bütövlüyü uğrunda döyüşürdük. Qəlbi Vətən eşqi ilə alovlanan yüzlərlə qardaş və bacımız öz şirin canından keçib şəhid oldu. Döyüşlərdə ağır yaralanıb qazi oldular. Bu gün yenə də ağır cəbhələrdə döyüşmüş Qarabağ veteranları, qaziləri ilə bir sırada Vətənimizin keşiyində dayanmışıq. Biz keçmiş Qarabağ döyüşçüləri Ali Baş Komandanın döyüş əmrinə hər an hazırıq. Torpaqlarımızın azadlığı uğrunda döyüşlərə hər zaman səfərbərik."

Bugünkü ordumuzun gücündən danışan birlik sədri bildirdi ki, ordumuz çox çətin bir dövrdə, müharibə şəraitində formalaşdı. "Bu gün dünyanın ən güclü orduları sırasında dayanan Azərbaycan Ordusunun təməli məhz Ümummilli Liderimiz tərəfindən qoyuldu. Dağınıq dəstələrdən nizami orduya çevrildi. Ordumuz vahid komandanlıqdan idarə olunmağa başladı. Ulu Öndərin komandanlığı altında strateji əhəmiyyətli yüksəkliklər, çoxlu sayda yaşayış məntəqələri düşmən işğalından azad edildi. Bunu hər zaman qeyd etməliyik ki, Azərbaycanımızda ordu quruculuğu ötən əsrin 60-cı illərinin sonlarından başlayıb. Ulu öndər Heydər Əliyev Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratmasaydı, bəlkə bugünkü ordumuz da belə qısa zamanda formalaşmazdı. Hər kəsə məlumdur ki, milli ordumuz yaranarkən onun zabit heyətinin əsasını həmin məktəbin məzunları təşkil edirdi. Mən də bu məktəbin məzunuyam. Bu məktəbi bitirməyimlə hər zaman fəxr etmişəm. Hər bir keçmiş Qarabağ döyüşçüsü müharibə illərini yaxşı xatırlayır. Heç bir təminat, təchizat yox idi. O dövrün ən müasir silahları ilə təmin edilən erməni yaraqlıları ilə, güclü təlim keçmiş xaricdən gətirilən muzdlu döyüşçülərlə döyüşürdük. Şükürlər olsun, bu gün ordumuz dünyanın ən güclü silah və texnikaları ilə təchiz edilib, hər il də Azərbaycan Ordusunun silahlanmasına yeniləri daxil edilir. Respublikamızın müdafiəsinin, təhlükəsizliyinin daha da gücləndirilməsi məqsədilə ölkəmizdə müdafiə sənayesi yaradılıb. Bütün bunlar bizə onu deməyə əsas verir ki, Azərbaycanımızın müdafiə qabiliyyəti hər gün artır. Ötən il Bakıda keçirilən iki möhtəşəm hərbi parad da ordumuzun gücünü bir daha təsdiqlədi."

Azərbaycan Ordusunun son illərdə keçirdiyi əks-hücum əməliyyatları - Aprel döyüşləri, Naxçıvanda Günnüt əməliyyatı zamanı işğalda olan torpaqlarımızın bir qisminin azad olunması barədə də danışan M.Mehdiyev bildirdi ki, hər birimiz Ali Baş Komandanın əmrini gözləyirik. "Biz Qarabağ müharibəsi veteranları, qaziləri mütəmadi olaraq cəbhə bölgələrində yerləşən hərbi hissələrimizdə əsgər və zabitlərimizlə görüşürük. Onlarla hərbi vətənpərvərlik mövzusunda dəyirmi masalar təşkil edib, diskussiyalar keçiririk. Yeri gəlmişkən, xalqımızın əziz bayramı Ramazan bayramı ərəfəsində cəbhə xəttində yerləşən "N" hərbi hissəsində Qarabağ veteranlarının, qazilərinin, ictimaiyyət nümayəndələrinin, o cümlədən Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovun iştirakı ilə ön xətt bölmələrimizdə xidmət edən əsgər və zabitlərimizlə görüşümüz oldu. Ön xətdə xidmət edən ordumuzun hərbi qulluqçuları ilə belə görüşlərin mütəmadi olaraq keçirilməsinin onların mənəvi-psixoloji hazırlığında böyük rolu var. Ona görə də biz veteranlar, qazilər ön xətdə xidmət edən əsgər və zabitlərimizlə tez-tez görüşür, onlara ordumuzun keçdiyi şanlı döyüş yolundan, xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan müasir ordu quruculuğuna verdiyi töhfələrdən, bu gün isə ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ölkənin hərbi quruculuq sahəsində apardığı zəngin fəaliyyətindən danışırıq."

Aprel döyüşləri zamanı Qarabağ veteranlarının, qazilərinin döyüş gedən bölgələrdə Goranboy, Ağdərə, Tərtər, Ağdam, Füzuli istiqamətlərində döyüşən ordumuzun yanında olduğunu deyən Qeyri-Hökumət Təşkilatının rəhbəri onu da vurğuladı ki, biz hər an döyüşə hazır vəziyyətdə dayanmışdıq. "Birliyimizin 3000 nəfər üzvü döyüşlərə getmək üçün siyahı hazırlayıb Müdafiə Nazirliyinə təqdim etmişdik. Aprel döyüşlərindən danışarkən bu fikri hər zaman deyirəm: düşmən gördü ki, Azərbaycan Ordusu artıq ötən əsrin 90-cı illərinin ordusu deyil, XXI əsrin ən müasir ordusudur. Xalqımız, ordumuz, dövlətimiz səfərbər olunaraq Ali Baş Komandanın rəhbərliyi altında ərazi bütövlüyümüzü bərpa edib, Qarabağımızı, Şuşamızı, Kəlbəcərimizi və digər işğalda olan torpaqlarımızı düşməndən azad etmək qüdrətindədir."

Azərbaycanımızın suverenliyi, ərazi bütövlüyü uğrunda canından, qanından keçmiş şəhidlərimizin ailələrinə, həmçinin müharibə əlillərinə, veteranlarına dövlətimiz tərəfindən hər zaman böyük diqqət və qayğı göstərildiyini deyən Mehdi Mehdiyev daha sonra bildirdi ki, ümummilli liderimiz Heydər Əliyevin dövlət siyasətində əsas istiqamətlərdən sayılan şəhid ailələrinə, müharibə veteranlarına və əlillərinə dövlət tərəfindən diqqət və qayğının göstərilməsi məsələsi bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. "Ölkəmizdə müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllini tapması, hər cür qayğı ilə əhatə olunması yüksək səviyyədə təşkil olunur. Dövlətimizin rəhbəri tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar çoxsaylı ailələrə böyük sevinc bəxş edir. Bütün bu istiqamətdə atılan addımlar təqdirəlayiq hal kimi qiymətləndirilir. Hər zaman dövlətin şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə göstərdiyi qayğı cəmiyyətdə məmnunluqla qarşılanıb. Müharibə əlilləri, veteranları və şəhid ailələrinin sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, eyni zamanda, Vətənimizin azadlığı uğrunda canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və minik avtomobilləri ilə təmin olunması da çox müsbət addım kimi dəyərləndirilir. Bunu da qeyd etmək yerinə düşər ki, dövlətimizin başçısının 2018-ci il 19 aprel tarixli fərmanına uyğun olaraq ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə, ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödənişin verilməsi Azərbaycan Prezidentinin şəhid ailələrinə diqqət və qayğısının növbəti təzahürü idi. Ümumiyyətlə, respublikamızda dövlətimizin Qarabağ müharibəsi əlillərinə, veteranlarına və şəhid ailələrinə ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əsas prioritetlərindən olmaqla yanaşı, eyni zamanda, davamlı, çoxşaxəli səciyyə daşıyır."

QMƏVŞAİB-nin sədri M.Mehdiyev söhbətinin sonunda qəzetimiz vasitəsilə Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri adından hər zaman üzərlərində diqqət və qayğısını hiss etdikləri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirdi.

**Söhbəti apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Türkiyədə 8 terrorçu zərərsizləşdirilib



Türkiyə təhlükəsizlik qüvvələrinin ölkənin Şırnak bölgəsində həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində zərərsizləşdirilən 8 terrorçudan ikisi axtarışda olub.

Məhv edilən terrorçuların şəxsiyyətləri müəyyənləşdirilərkən məlum olub ki, öldürülənlərdən biri "Sarya" ləqəbli Emine Toy, digəri isə "Baran" ləqəbli Yılmaz Begiçdir. Hər iki terrorçunun adı Daxili İşlər Nazirliyinin müəyyən etdiyi təhlükəli terrorçular siyahısında olub.

### İspaniya yeni nəslə aid qırıcı təyyarə yaradılması layihəsinə qoşulub



İspaniya Müdafiə Nazirliyindən verilən məlumata görə, bu ölkə yeni nəslə aid qırıcı təyyarə yaradılması layihəsinə qoşulub. Fransa və Almaniya artıq bu layihənin iştirakçılarıdır.

"Future Combat Air System" proqramına əsasən gələcəkdə "Eurofighter Typhoon" və "Dassault Rafale" modellərini əvəz etməli olan qırıcı təyyarə yaradılması nəzərdə tutulur.

Tədqiqatlarda "Airbus", "Dassault Aviation", "Safran" və "MTU Aero Engines" şirkətləri də iştirak edir.

### Norveçdə ilk dəfə olaraq ən yeni "F-35" qırıcı təyyarələrindən istifadə edilməklə hərbi təlimlər keçiriləcək



Bu həftə norveçli pilotlar amerikalı həmkarları ilə birlikdə ən yeni "F-35" qırıcı təyyarələrindən istifadə edilməklə hərbi təlimlər keçirəcəklər.

Norveç KİV-ləri xəbər verir ki, bu tipli birgə hərbi təlimlər ilk dəfə keçirilir.

Norveç Hərbi Hava Qüvvələri (HHQ) mətbuat xidmətinin rəhbəri polkovnik Oyvind Qannerud deyib: "Bu cür inteqrasiya edilmiş təlim çox məqsədəuyğun, onun hər iki tərəfdaş ölkə üçün dividend potensialı isə çox yüksəkdir".

Təlimlər çərçivəsində döyüş təyyarəsinə xidmət göstərən texniki heyətin əməkdaşlığı da təşkil ediləcək. Hərbi təlimlər NATO-nu dəstəkləməyə və "F-35" qırıcı təyyarəsi ilə bağlı proqramın hazırlanmasında iştirak edən ölkələr arasında münasibətlərin möhkəmlənməsinə yönəlib. ABŞ-a məxsus qırıcı təyyarələr Norveçə Finlandiyadan gələcək.

Qeyd edək ki, Norveç Hərbi Hava Qüvvələri indiyə qədər 12 ədəd "F-35" təyyarəsi alıb. Bu ilin payızında Norveç HHQ-nin sərəncamına daha üç təyyarə daxil olacaq. Norveç hökuməti 52-yə qədər "F-35" təyyarəsi almaq barədə qərar qəbul edib. Onlar Norveç HHQ-nin heyətində istifadəsi tədricən dayandırılan "F-16" təyyarələrini əvəz edəcək.

### Polşa ABŞ hərbçilərini Belarus sərhədinə yerləşdirəcək



NATO Amerika Birləşmiş Ştatlarına (ABŞ) aid hərbçiləri Polşanın şərqində altı nöqtədə yerləşdirəcək.

Bu barədə Polşanın müdafiə naziri Mariuş Blaşak "Polşa radiosu"nda məlumat verib.

O, ölkənin şərq sərhədlərinin gücləndirilməsini məqbul saydığını deyib. ABŞ prezidenti Donald Tramp da bu məsələyə aydınlıq gətirərək bildirib ki, Polşa hökuməti mindən çox hərbçini ölkəsində qəbul etməyə hazırdır.

**AZƏRTAC-ın materialları əsasında**

## Qaytar ana borcunu

Bir gözəl, bir sevimli oğul böyütdü ana.
O bəd, uğursuz günü - ərinin öldüyünü
Bildirmədi heç ona.
Kədəri dalğa-dalğa doldusa da ürəyə,
Lakin nə saç yolaraq verdi əsən küləyə,
Nə şivən etdi ana,
Ürəyində ağlayıb, gülmək öyrətdi ona.
Dözərək davanın da dərdinə, bəlasına,
Öz boğazından kəsib yedirdi balasına...
Bir oğul böyütdü ki, gur çatmaqaş, gen sinə,
Bir oğul böyütdü ki, oğul deyirəm sənə:
Atlını atdan salıb küləklərlə ötüşür,
Baxışından qızların ürəyinə od düşür.
Bir oğul böyütdü ki, oğul məktəb bitirdi,
Oğul instituta qızıl medalla girdi.
Ana fikirləşdi ki, "Gör neçə aya getdi?!"
Ana yuxularında tez-tez Bakıya getdi.
Ana məktub yazdı ki, "Yanıltma gümanımı,
Pul nədir, pul deyirsən, göndərərəm canımı".
Nə zaman ki oğlunun getdiyi dörd il oldu,
Məktubları kəsildi, gəlmədi, tətil oldu,
Ananı fikir aldı, ananın əsdi dizi,
Ana müqəssir etdi tramvayı, dənizi.
O yenə dözdü, durdu...
O, yolmadı saçını,
Səslədi qonşuları Əsmər, Çiçək bacını.
Yenə də azalmadı ürəkdən bala dərdi,
Onlar oğul vermədi, onlar təsəlli verdi.
Məktub məktub dalınca axdı, Bakıya axdı,
Ana da məktubların dalınca baxdı, baxdı...
Məktublarsa Bakını dolandı, gəzdi, gəldi,
Məktublar əzik-üzük, məktublar bezdi gəldi,
Ana yenə də baxdı gah dolama yollara,
Gah da oğul boyuna həsrət qalan qollara.
Ana oğul böyütdü gur çatmaqaş, gen sinə,
Ana oğul böyütdü, özgəyə qismət oldu.
Ana fikirləşdi ki, mən neyləmişəm sənə?
Bu nə oğulluq oldu, bu nə məhəbbət oldu?
Oğul böyütdümü o, büzmədodaq bir qıza?
Oğul böyütdümü o, min işvəyə, min naza?
Ana bilsəydi əgər böyütməzdi oğlunu,
Yox, bunu yandım dedim, yenə atmazdı onu.
Bir gözəl, bir sevimli oğul böyütdü ana,
Ürəyində ağlayıb gülmək öyrətdi ona.
Oğul! Nədir etdiyin bəs bu haq-say üçün?
Qaytar onun ömrünə neçə gecə, neçə gün!
Qaytar onun saçının qaralığını geri.
Qaytar o dilindəki şirin-şirin sözləri!
O sözü, o söhbəti gülüşü anan verib,
Ana dodaqlarından bala dodaqlarına.
İndi ondan gen gəzən oğul, ayaqlarına
Yerişi anan verib.
Qaytarsan o sözləri, sözsüz bir lal olarsan,
Qaytarsan o yerişi, yerindəcə qalarsan.
Qaytarsan o gülüşü hırıldamazsan daha,
Qaytar, qaytar onları, qaytar qoyma sabaha!
Sən ki dərd verdin, oğul, sənə gülüş verənə,
Oğul deməröm sənə!
Deyirəm ki, o boyu, buxunu qaytar geri!
Deyirəm ki, varını, yoxunu qaytar geri!
Qaytar onun borcunu,
Gülüşünü, adını, sözünü qaytar geri!
Qaytar onun borcunu,
O borc sənin özünsən, özünü qaytar geri!

## Qayıt…

Həsrətin araya atdı, dağ, dərə,
Sönən işıq oldun, batan səs oldun.
Qayıt, mənim gülüm, qayıt bu yerə,
Ey mənim istəyim, nə gəlməz oldun!

Ümidlər, arzular pərən-pərəndir,
Qəlbə təsəllidir xatirələrim.
Bir halımı soruş, könlümü dindir,
Axşamlar yadıma düşür səhərim.

Qayıt, mənim gülüm, yerbəyer elə
Dərdli səhərləri, gecələri sən.
Çaşıb başqa yolla keçirəm elə,
Düz öz qaydasınca küçələri sən.

Qayıt, yerinə qoy Ayı, Günəşi, -
Yenə olduğu tək görüm həyatı
Qayıt, gözüm nuru, könlüm atəşi,
Qayıt, sahmana sal bu kainatı!

*Könlüm şeir istəyir*

# Qəlbə təsəllidir xatirələri

*Şair Əli Kərimin şeirləri ilk oxunuşda seçilir. Mövzusu, deyim tərzi, poetik tutumu ilə fərqlənən yaradıcılıq zamanında da diqqəti çəkib, illər sonra da diqqəti çəkir. Bu şeirlər bilavasitə insanlığa şair narahatlığı təsirindədir. Ona görə də oxunaqlıdır, düşündürücüdür, yaşarıdır. Əli Kərimin yaradıcılığı sonrakı illərdə poeziyamızda yeni bir üslubun başlanğıcı oldu...*

*Poeziyamızda Əli Kərim ucalığı ehtiramlarla əhatələnib...*

**"Azərbaycan Ordusu"**

## İki sevgi

Gözəl qız, sən saf susan,
İki qəlb arzususan.
Mən səni sevirəm
Susuzluğun od vurub
köz kimi yandırdığı
dodaq su sevən kimi.
O isə səni sevir
rahatca bardaş qurub,
- Kabab üstdən sərin su
pis olmaz - deyən kimi
Gözəl qız, sən işıqsan,
Yurduma yaraşıqsan.
Mənsə səni sevirəm
iynənin ucu boyda
İşığa həsrət qalan
göz işıq sevən kimi,
O isə səni sevir
Bir şən mağarda, toyda,
İşıqlardan yaranmış yaraşıq sevən kimi.
Danış, ucalsın səsin,
Qısılmasın nəfəsin.
Mən ki səni sevirəm
Bakıdan, Daşkəsəndən
Gələn bir səda kimi,
Səs kimi,
Qüdrət kimi.
O isə səni sevir,
Gizli deyil ki səndən,
Bir otaq künçündəki
qəmli sükunət kimi.
Bu mən, bu o, bu da sən,
De görək nə deyirsən!
Amma yaxşı fikir ver bu iki məhəbbətə.
Daha heç nə demirəm
Nöqtə, nöqtə və nöqtə.

## Bakı küləyi

Demirəm hər zaman gəz bu diyarı.
Sındır budaqları, əy budaqları.

Bəzən də sakit əs, su kimi durul,
Gəlib dalğa-dalğa tökül qoynuma.
Gah da mənə çatıb havada burul.
Burula-burula dolan boynuma.

Amma ürəyimdə bir sözüm də var,
Sən ey soyuq xəzri, isti giləvar!
Gəlsə yuxu kimi bu həyat sənə
Min bir mübarizə xatırlat mənə.

O güclü dalğalar, o gur dalğalar
Qəfil yerimdən də qoparsın məni.
Gurlasın o ki var, coşsun o ki var,
Yüyürdə-yüyürdə aparsın məni.

Gurla var gücünlə, gurla, ey külək,
Saçımı da dağıt, sinəmdən də bas!
Mən də cavab verdim, mənə qulaq as:
Gəl bir də toqquşub döş-döşə gələk!

Görsən tufansızam, görsən rahatam,
Qoyma xumarlanıb evdə də yatam.
Ey Bakı küləyi, səhərə kimi
Sındır pəncərəmi, döy pəncərəmi!..

## Kür, sənə bənzəyən nəğməm olaydı!

Kürüm, sanıram bir xoş nəğməsən,
İndicə qopmusan min-min dodaqdan.
Sənintək mənalı bir nəğməni mən
"Hardasan", - deyərək gəzirəm çoxdan.

Doldurub ovcuma sərin suyunu
Sevdiyim nəğmənin bir damlasıtək,
Ey könül, deyirəm, seyr elə bunu,
Mənalı olmağı bundan öyrənək.

Yazdığım nəğmə də istərəm ki mən
Sədada, qüdrətdə tamam sən ola.
Həvəslə, zövq ilə həm dinlənən,
Həm də ki gözlərə görünən ola.

Axar ürəyimə yüz ömrün kamı
O əziz yaransa elə su kimi.
Qoy belə olmasa könlün ilhamı,
Dağılsın bir uşaq yuxusu kimi!

Sənintək a Kürüm, mənim də nəğməm
Axa şəhərlərə, axa kəndlərə.
Mildə iş qurtarıb susanda aləm
Xoş səda salaydı aynabəndlərə.

O da dalğalanıb, yeriyib arx-arx
Bu ana torpağı qucaqlayaydı.
Sən ellər gəzəndə işıq saçaraq
Sözüm könüllərə şəfəq yayaydı.

Sənintək axaydı səsim də, a çay,
Muğanda "su" deyib yananda düzlər,
Mənim də nəğməmi tarlada hər yay,
Sərin suyun kimi içəydi qızlar.

Hər könül istəyim, könül harayım,
Ellərin qeydinə belə qalaydı.
Heç nə istəmirəm, mənim Kür çayım,
Bir sənə bənzəyən nəğməm olaydı.

## Daş

Yarıçılpaq
Qədim insan
Düşməninə bir daş atdı,
Qana batdı.
Daş düşmədi
Amma yerə.
Uçub getdi
Üfüqlərdən üfüqlərə.
Deməyin ki daş yox oldu.
Oldu qılınc,
güllə,
mərmi.
Dayanmadı fikir kimi.
Atom kimi
Meridianı qırıq-qırıq,
Arzuları zərrə-zərrə,
Okeanı parça-parça
Edib keçdi…
Həmin o daş
İndi yenə dayanmayır
uçur hara?
O neytron,
elektron -
Dönüb
nələr,
nələr olur.
Alov olur,
ölüm olur,
zəhər olur.
Ey həməsrim,
Həqiqətin qan qardaşı,
Dayandırmaq olmazmı, de,
Yarıçılpaq
yarıvəhşi
Qədim insan
atan daşı?!

# İdman

## Doqquz yaşlı gimnast Mina Abbasova bu dəfə doğma Bakıda qızıl medal qazanıb



Macarıstanda yaşayan balaca həmyerlimiz doğma Vətənimizdə qələbə sevinci yaşayıb. Belə ki, iyun ayının 12-dən 15-dək Bakıda keçirilən "Gymkids kuboku 2019" bədii gimnastika üzrə 1-ci açıq beynəlxalq çempionatda 9 yaşlı Mina Abbasova fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Rusiya, Belarus, Ukrayna, Qazaxıstan, Gürcüstan, Dağıstan, Macarıstan, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrin təmsilçilərinin iştirak etdikləri bu yarışda Macarıstanda yaşayan həmyerlimiz Mina Abbasova yenə də həmyaşıdları arasında fərqlənib. Müxtəlif yaş kateqoriyalarından olan 400-dən çox idmançının qatıldığı turnirdə o, 2010-cu il təvəllüdlü gimnastlar arasında qızıl medala sahib olub.

Qeyd edək ki, sayca 34-cü medalını (12 qızıl, 19 gümüş, 3 bürünc) doğma Bakıda qazanan Mina Abbasova müxtəlif beynəlxalq yarışların ən yüksək mükafatlarına layiq görülüb. O, 5 yaşından başlayaraq Macarıstanda fəaliyyət göstərən beynəlxalq dərəcəli hakim Lyubov Bernat və Inga Mackusun rəhbərlik etdiyi "Rus Rg Sport" klubunun üzvüdür. İştirak etdiyi bütün yarışlarda valideynlərinin işi ilə bağlı ezam olunduqları ölkəni - Macarıstanı təmsil etsə də, ötən ilin avqustundan etibarən Budapeştdə keçirilən XVII ənənəvi "Gracia" kuboku turnirindən sonra klub rəhbərliyinin icazəsi ilə Azərbaycan bayrağı altında çıxış edir.

Balaca gimnastımızın ən böyük arzusu ölkəmizi dünya çempionatlarında və Olimpiya Oyunlarında təmsil etmək və üçrəngli bayrağımızı zirvələrə qaldırmaqdır.

## Azərbaycanlı idmançı erməni rəqibini məğlub edərək pauerliftinq üzrə Avropa çempionu olub



İyunun 7-dən 12-dək Rusiyanın Soçi şəhərində pauerliftinq üzrə Avropa çempionatı keçirilib. Bu yarışda milli komandamız da təcrübəli idmançılarla təmsil olunub.

Milli komandanın tərkibində mütləq çəki dərəcəsində gücünü sınayan Səbail Rayon Mühafizə İdarəsinin əməkdaşı, polis baş serjantı Razim Hüseynov üç hərəkətin cəmində 885 kiloqram ağırlığı qaldıraraq yaxın izləyicisi olan erməni rəqibini məğlub edərək turnirin qalibi olub.

Qeyd edək ki, R.Hüseynov pauerliftinq üzrə bir dəfə dünya çempionu və dünya ikincisi, üç dəfə Avropa çempionu və səkkizqat Azərbaycan birincisidir.

## Uşu üzrə Bakı kuboku yarışlarına yekun vurulub



İyunun 16-da Abşeron Olimpiya İdman Kompleksində uşunun citkundo və çinda növləri üzrə Bakı kuboku yarışlarına yekun vurulub.

Yarış yeniyetmələr, gənclər və kişilər arasında keçirilib. Çempionatda Bakının idman klublarından 200-ə yaxın idmançı qızıl medal uğrunda mübarizə aparıb. Bakı kuboku üzrə mübarizədə "Arktika" komandası medal hesabına görə birinci olub. "Anar-Mehemmedi" komandası ikinci, "Avatar" komandası isə üçüncü olub. Qeyd edək ki, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Uşu Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən yarışın qalibləri federasiya tərəfindən diplom və medallarla təltif olunub.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 470
Nüsxə 3950